# Bakıda Yaponiya İmperatoru Əlahəzrət Naruhitonun 65 illik yubileyinə həsr olunmuş ziyafət təşkil olunub

**Tədbir hər iki ölkənin Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Tədbirdə çıxış edən Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Katsuya Vatanabe əvvəlcə keçən il Qazaxıstanın Aktau şəhəri yaxınlığında "Azərbaycan Hava Yolları" şirkətinə məxsus təyyarənin qəzaya uğraması nəticəsində çoxsaylı insan təlafatına görə dərin hüznlə başsağlığı verib, yaralılara şəfa arzulayıb.**





O, nitqinə belə davam edib: "Ötən il Azərbaycanda COP29 tədbiri təşkil edildi. "Yaşıl inkişaf" naminə iddialı səylər göstərən Azərbaycanda COP29-un keçirilməsi gələcəkdə "yaşıl cəmiyyət"in qurulması istiqamətində mühüm addım idi. Bir daha ev sahibi kimi COP29-u müvəffəqiyyətlə təşkil etdiyinə görə Azərbaycan Hökumətinə öz hörmətimi izhar etmək istərdim və ümid edirəm ki, Yaponiya və Azərbaycan bu kimi yeni sahələrdə də birgə işləməyə davam edəcək, "yaşıl cəmiyyət"in tez bir zamanda gerçəkləşdirilməsi naminə çalışacaqlar. Həmçinin ümid edirəm ki, Yaponiya şirkətləri tərəfindən "yaşıl sahə"də olan layihələrin gerçəkləşdirilməsi və ya sərmayələri, iki ölkə arasında iqtisadi fəaliyyətin daha da canlanmasına gətirib çıxaracaq. Azərbaycan və Yaponiya arasındakı dostluq münasibətlərinə ümumi nəzər yetirdikdə, həmin tarixin 1992-ci ildə diplomatik münasibətlərin qurulmasından 30 ildən artıq müddətdə siyasət, iqtisadiyyat, mədəniyyət, təhsil və bir çox digər sahələrdə inkişaf etdiyini görə bilərik", - deyə bildirib.

Diplomat vurğulayıb ki, Azərbaycanda Yaponiyanın ənənəvi mədəniyyətinə, anime, manqa, "cosplay" və sair sahələrinə böyük maraq var. Həmçinin, cüdo, karate, aikido kimi budo döyüş sənət növləri də geniş yayılıb: "Bu cür fəal əməkdaşlıq əlaqələri, insanlar arasında mübadilələr, bu gün mövcud olan bağları daha da möhkəmləndirir. İqtisadi əməkdaşlığın genişlənməsi nəticəsində bundan sonra İT, ekologiya, turizm kimi yeni sahələrdə də fəal əməkdaşlıq əlaqələrini inkişaf etdirmək niyyətindəyik. Xüsusilə, pandemiyanın sonundan bəri Yaponiyaya səfər edən azərbaycanlıların sayında kəskin artım müşahidə edilir. Daha çox azərbaycanlının Yaponiyanı yaxından tanıması ilə bərabər, yaponların da möhtəşəm Azərbaycanın cazibəsi ilə tanış olmalarını istərdim. Vizual mediadan istifadə etməklə yayım, turizm tədbirlərinin keçirilməsi ilə ölkələr arasında turizm sahəsinin inkişafına yönəlmiş mümkün əməkdaşlıq imkanlarının araşdırılmasının gərəkli olduğunu düşünürəm".

Daha sonra bu il Yaponiyanın Osaka şəhərində "Osaka Kansai EKSPO 2025" sərgisinə dair videoçarx nümayiş etdirilib.

Xarici işlər nazirinin müavini Elnur Məmmədov isə çıxışı zamanı Azərbaycanın Yaponiya ilə münasibətlərə xüsusi önəm verdiyini, ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini diqqətə çatdırıb: "Ötən illər ərzində Azərbaycanla Yaponiya arasında dostluq əlaqələri dinamik inkişaf yolu keçib, iqtisadiyyat, enerji, investisiya, humanitar və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığımız güclənib. Azərbaycanla Yaponiya arasında siyasi-iqtisadi əlaqələrlə yanaşı, parlamentlərarası münasibətlər də yüksələn xətlə inkişaf etməkdədir. İki ölkə arasında iqtisadi əlaqələrdə dinamika artmaqdadır. Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi 428 milyard dollar təşkil edib. Hazırda ölkəmizdə Yaponiyanı təmsil edən 47 şirkət, sənaye, tikinti, ticarət, kənd təsərrüfatı və digər sahələrdə fəaliyyət göstərməkdədir. Təqdirəlayiq haldır ki, yapon şirkətləri Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinə də maraq göstərirlər. Biz, həmçinin əməkdaşlığımızın mühüm istiqamətlərindən biri olan enerji sektorunda işbirliyimizi yüksək qiymətləndiririk. Qeyd edim ki, biz Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "ağıllı şəhər" və "ağıllı kənd", eləcə də "Yaşıl enerji zonaları" konsepsiyalarının həyata keçirilməsi yönündə Yaponiya şirkətləri ilə əməkdaşlığımız mövcuddur. Təhsil sahəsində əməkdaşlığımız iki xalq arasında dostluğun gücləndirilməsində mühüm rol oynayır. Hazırda bir sıra təhsil müəssisələrində yapon dili tədris olunur. Ali təhsil ocaqları arasında tələbə mübadiləsi proqramı həyata keçirilir. Azərbaycanla Yaponiya arasında əməkdaşlıq yalnız ikitərəfli səviyyə ilə məhdudlaşmır. Yaponiya ilə beynəlxalq təşkilatlar və tədbirlər çərçivəsində də yaxından tərəfdaşlıq edirik".

Ziyafət tədbirində yapon sakesi ilə yanaşı, yapon aşpazı tərəfindən hazırlanmış suşi, tempura kimi təamlar və Yaponiyanın budo döyüş sənətinin nümunəsi olan kendonun nümunəvi çıxışı da təqdim olunub. Həmçinin Yaponiya şirkətlərinin sərgisi, Osaka şəhərində keçiriləcək "EKSPO 2025"in təqdimat stendi də nümayiş etdirilib. Tədbir iştirakçılara Yaponiya mədəniyyəti və texnologiyalarına yaxın olmaq şansı yaradıb.

*AZƏRTAC*

Azərbaycan. - 2025.- 23 fevral (№ 41).- S.4.